# Bəşəriyyətin bəlası

**Bədənin, demək olar ki, hər bir orqanında anormal hüceyrələrin nəzarətsiz böyüməsi ilə başlayan xərçəng xəstəliyi tarixin ən qədim xəstəliklərindən hesab edilir. Araşdırmalara görə, xərçəngə dair ilk dəlil 1,7 milyon il əvvələ aid fosillərdə tapılıb.**

Fərqli toxumalarına görə adlandırılan 200-dən çox xərçəng növü müəyyən edilsə də, onların rastgəlmə tezliyi insandan insana dəyişir. Statistikaya əsasən, hər il dünyada təxminən 19,5 milyon insana xərçəng diaqnozu qoyulur. Mütəxəssislər zamanında qarşısı alınmazsa, 2050-ci ilə qədər bu rəqəmin 35 milyona çatacağını proqnozlaşdırırlar.

Xərçəng haqqında məlumatlılığın artırılması, profilaktikası, aşkar edilməsi və müalicəsinin təbliği məqsədilə 2005-ci ildən başlayaraq, hər il fevralın 4-ü Beynəlxalq Xərçəng Əleyhinə İttifaq tərəfindən Ümumdünya Xərçənglə Mübarizə Günü kimi qeyd edilir.

## Digər ölkələrlə müqayisədə Azərbaycanda xərçəng xəstəsi çox azdır

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Milli Onkologiya Mərkəzinin baş həkimi Azad Kərimlinin sözlərinə görə, toxumaların hüceyrəvi elementlərinin sürətlə çoxalması ilə xarakterizə olunan, orqanizmin tənzimləyici təsiri ilə məhdudlaşmayan patoloji proses olan xərçəng xəstəliyinin yaranma səbəbi hələ də tam məlum deyil: "Genetik meyil, tütün və spirt istifadəsi, radiasiya, kanserogen və kimyəvi maddələr, müxtəlif viruslar, pis qidalanma vərdişləri və hava çirkliliyi xərçəng xəstələrinin artmasına əsas verən ehtimallardır. Bu sadaladıqlarımızın hamısı bizdən asılı olmaya bilər. Lakin biz öz üzərimizə düşəni edib, gündəlik vərdişlərimizi dəyişdirə bilərik. Xüsusilə yuxu rejiminə, qida rasionuna və aktiv həyat tərzinə diqqət etməliyik. Ərzaq məhsullarından istifadə edərkən onların təbii, orqanik olmasına çalışmalıyıq. Hər bir insan gün ərzində 3 dəfə qidalanmalıdır. Son qida qəbulu isə axşam saat 7-dən gec olmamalıdır".

Son illər bütün dünyada olduğu kimi, Azərbaycanda da onkoloji xəstələrin sayında artım müşahidə edildiyini deyən həkim-onkoloq bunun səbəbini demoqrafik göstəricilərlə izah edib: "Bu artım digər ölkələrlə müqayisə etdikdə ölkəmizdə çox azdır. Statistikaya əsasən, əhalimizin sayı 10 milyonu ötüb. Buna görə də yalnız onkoloji deyil, ümumiyyətlə, bütün xəstəliklərə yaxalananların sayının artması normal haldır. Bu gün 69425 nəfər onkoloji xəstə qeydiyyatdadır. Bu xəstələrdən 25235 nəfəri 5 il və yuxarı yaşayanlardır. Onların arasında xərçəng diaqnozu ilə 15 il, 25 il ömür sürənlər də az deyil".

## Xərçəng həyatın sonu deyil

Hər bir onkoloji xəstəliyin növündən asılı olaraq lokal simptomlarının olduğunu qeyd edən Azad Kərimli bildirib ki, xəstəliyin əlamətləri özünü büruzə verməmiş müayinələrdən keçmək lazımdır: "Kişilər arasında daha çox ağciyər traxeya və prostat vəzisinin, qadınlar arasında isə uşaqlıq boynu və süd vəzisinin xərçənginə rast gəlinir. Süd vəzisi xərçənginə vaxtında diaqnoz qoymaq üçün 35 yaşdan yuxarı qadınlar hər il mamoqrafiyadan keçməlidirlər. 40-45 yaşdan yuxarı kişilər isə hər il rentgen müayinəsindən keçməli, urologa müraciət etməli və qan testləri verməlidirlər Təəssüf ki, xəstələr, adətən, xəstəlik şiddətlənəndə və III-IV mərhələyə keçəndə ondan xəbər tuturlar".

Əhali arasında bu xəstəliklə bağlı ciddi qorxu və təşvişin olduğunu söyləyən həkim-onkoloq deyib ki, xərçəng də digər xəstəliklər kimi sağalmaq qabiliyyətinə malikdir: "Bu xəstəlik bir çox onkoloji xəstənin düşündüyü kimi, həyatın sonu deyil. Əgər xəstəlik erkən mərhələdə aşkar edilsə, düzgün diaqnoz qoyulsa və müvafiq müalicə taktikası seçilsə, bunun digər xəstəliklərdən, demək olar ki, fərqi yoxdur və o, tam sağalma qabiliyyətinə malikdir. Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə onkoloji xəstələrin müalicəsi ən müasir avadanlıqlarla aparılır".

İnsanların maarifləndirilməsi və düzgün həyat tərzinin təbliği bir çox xəstəliklərdə olduğu kimi, xərçənglə mübarizədə də önəmlidir. Bunun üçün mütəxəssislərin tövsiyələrini dinləmək, vaxtlı-vaxtında müayinə olunmaq, xəstəliyə tutulduqda isə psixoloji sağlamlığı qorumaq lazımdır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 4 fevral (№ 24).- S.9.